# SABİR

# Hophopnamə

QANUN NƏŞRİYYATI

Sabir bədii yaradıcılığa kiçik yaşlarında, Seyid Əzim Şirvaninin məktəbində oxuduğu zaman başlamış, ilk şeirlərini Şərqin Firdovsi, Sədi, Füzuli kimi böyük klassiklərinin təsiri ilə yazmışdır. Bu əsərlər lirik üslubda və əsasən qəzəl janrındadır. Başqa Azərbaycan sənətkarları kimi, Sabirin də qəzəllərinin ana xətti, leytmotivi məhəbbət duyğularının təsvir və tərənnümüdür.

Əsərlərinin bir qismində Sabir zəhmətkeşlərin qüdrətli müdafiəçilərindən biri olaraq bilavasitə xalqı öz haqqını başa düşməyə, birləşməyə çağırır. O, əməkçi insana məhəbbətini açıq bildirərək, "böyüklərin", "zorbaların" zülmündən nifrətlə danışır. Belə əsərlərində o, fikirləri öz dilindən söyləyir. Əsərlərinin çoxunda isə şair istismarçı siniflərin nümayəndələrini danışdırmaq üsülundan istifadə edir. Belə əsərlərdə mənfi surətin özü eyiblərini etiraf edib, daxili aləmini açır. O öz sözləri ilə oxucunu özünə güldürür. Başdan-ayağa kinayə və istehza ifadə edən belə şeirlərə "satirik monoloq" adı vermək olar.

# „Хопъ-Хопъ Намэ".

## ПОЛНОЕ СОБРАНІЕ

# СТИХОТВОРЕНІЙ

Кавказско-тюркскаго народнаго поэта

## Сабира Таиръ-Заде.

Издательница

ХАНУМА ТАИР-ЗАДЕ.

**2-ое полное изданіе.**

**Цѣна 1 руб. 50 коп.**

БАКУ.
Типо-Литографія „КАСПІЙ" Иса-бека Ашурбекова.
1914 г.

**Sabir Tahirzadə öz feti xətti ilə yoldaşı Abbas Səhhətə yazdığı məktubdan:**

... Dünyadan, həyatımdan bezaram.

Bəradər, yəqin et ki, şərən məsul olmasaydım özümü məsmum edərdim. Bir dəfə dünyanın əzabından xilas olardım, lakin nə etməli, tərbiyə ibtidaiyyənin təsirindənmi, dindarlıqdanmıdır ki, buna vicdanən razı olmuram nə qədər cismən narahat...


. دنیادن حیاتمدن بیزارم برادر یقین
ایت که شرعاً مسئول اولمسیدم اوزمی
مسموم ایدردم بر دفعه دنیانک عذابندن
خلاص اولوردم لکن نه ایتمالی تربیهٔ
ابتدائیه‌نک تأثیرندنمی، دیندارلقدنمی درکه
بونه وجداناً راضی اولمیورام نه قدر جسماً ناراحت...

# SABİRİN TƏRCÜMEYİ-HALI

Mirzə Ələkbər Sabir Tahirzadə 1278-ci sənə-hicridə zilhiccə ayının əvvəlinci günündə Şamaxıda təvəllüd etmişdir və rəcəb ayının 28-də, 1329-cu ildə vəfat etmişdir.

8 yaşında məktəbə gedib oxuduğunu yazmağa həvəsnak olduğundan mollası tərəfindən afərin əvəzinə döyül-düyünü uşaq dili ilə bu sayaq nəzm etmişdir və rəsmi-xətti də böyləcə imiş:

Tutdum orucu irəmazanda,
Qaldı iki gözlərim qazanda,
Mollam da döyür yazı yazanda.

On iki sinnə yetişdikdə mərhum Hacı Seyid Əzimin məktəbinə daxil olmuşdur. Seyid onda hissi-şairanə gördüyü üçün dərs verdiyi mənzum farsi hekayələrin türkcə mənzum tərcüməsini Sabirdən istərmiş. O cümlədən "Gülüstan"da – "Didəm güli-tazə çənd dəstə, Bər günbədi əz-giyab bəstə" ilaxır hekayəsini türkcəyə belə nəzmən tərcümə etmişdir:

Gördüm neçə dəstə tazə güllər,
Bağlanmış idi giyah ilən tər.
Dedim nə olur giyahi-naçiz –
Ta əyləşə gül səfində əziz.

Ot ağlayaraq dedi: otur sən,
Söhbət eləyim, qəmim götür sən.
Alilər edərmi tərki-söhbət,
Halonki olarda var səxavət.

Bir-iki il məktəbə davam etdikdən sonra cüzi farsca, türkcə oxuyub-yazmağı öyrəndiyinə atası iktifa edir, ona bir daha məktəbə getməyə riza verməyib özü ilə bərabər dükana aparır. Sabir isə istedadi-fitrisi mucibincə dükanda olduğu halda yenə kitabət və qiraətlə məşğul olur. Alış-verişdən ziyadə oxuyub yazmağa həvəsnak olduğundan atası dil-təng olub, onu məzəmmət edirmiş. Hətta bir dəfə şeir kitabını da cırmış. Bu isə Sabirin təbinə nagüvara gəlib Şamaxıdan qaçmağa müsəmməm olub belə bir qəsidə yazmış:

Mən Xəlilüllahi-əsrəm, pədərəm çün Azər,
Səfər əzbabili-Şirvan künəm, inşaallah,
Gərçi u dəftəri-əşari-məra parə nəmud,
Vəslə batəbi-dürəfşan künəm, inşaallah.[1]

Bu vəqədən sonra Xorasana gedən bir karvana qoşulub gedirsə də, atası xəbərdar olub qaytarır. Məhərrəm və səfər aylarında növhə deyib oxumaqla atasının və sair camaatın əzizi olur. Nəməki danışmağı, şux, zərif və hazır-cavablığı səbəbindən az zamanda üləma və əyanın yanında məruf və məşhur olur və ümumun məhəbbətini cəlb edir. Xüsusən ustadı mərhum Hacı Seyid Əzimin mənzuri-nəzəri olur. Bir vaxt Seyid ilə bərabər səfərdən gəlmiş bir nəfər şəxsin görüşünə gedirlər. Müsafir çamadanından on dənə lumu

[1] Bu barədə atası haqqında yazdığı həcv bir parə səbəblərə görə dərc olunmayıb.

çıxarıb iki dənəsini Seyidə, bir dənəsini Sabirə verir, buna münasib Sabirdən bədahətən bir şeir istəyir. Sabir bir az fikirdən sonra deyir:

Xumsi-şərabi Seyyidə saqi verib dedi:
Sabir fəqirdir, yetər ancaq zəkat ona.

Mərhum Seyid də:

Seyyiddir ustad buna nəzmü nəsrdə.
Möhtaci-istifadədədir kainat ona.

– beytini deyib haman şərə iltihaqını Sabirə təklif edir. Zatən o qəsidə deyib bəzi əyanı tərif etməyə heç mail olmamışdır. Qəsidə yazmaqda ədəmi-iqtidarını göstərən əşxasa dediyi bu idi: "Puldan ötəri yalan mədihələr yazmaqda iqtidarım yox isə də, doğru həcv yazmaqda çox hünərliyəm" – deyə bu qitə ilə iftixar edərdi:

Şeir bir gövhəri-yekdaneyi-ziqiymətdir,
Salmaram vəsfi-düruğ ilə onu qiymətdən.
Deyərəm həcv, sözüm doğru, kəlamım şirin,
Əhli-zövqə verərəm nəşə bu xoş şərbətdən.

Seyidin bir qəzəlinə ki, mətləi-ati ilə başlanır:

Ey məh, bilirəm fitneyi-dövran olacaqsan,
Ey qaşı hilalım, məhi-taban olacaqsan.

– cavab olaraq bir neçə şeir deyib göndərir ki, o şeirlər bunlardır:

Sən piri-cahandidəsən, ey Seyyidi-sərkar!
Məndən çək əlin, eyləgilən pir ilə rəftar!
Olmaz sənə qismət dəxi bu dövləti-didar,
Bundan sonra hicrimdə ciyərqan olacaqsan.

Aşiq mənə bir mən kimi ziba gərək olsun,
Mail gülə bir bülbüli-şeyda gərək olsun,
Səndə bu işə səbrü şəkiba gərək olsun,
Amma bilirəm, səbr evi, viran olacaqsan.

Seyid "Xəmse"yi-Nizamiyəni mütaliə etdiyi halda Sabirin məktubu yetişir. Oxuyub belə cavab yazır:

"Nuri-didəm Sabir! Qəzəlimin birinə yazdığın məlih və şirin cavab çox xoşuma gəldi. Hazırda başqa bir şeyə gümanım olmadığından həmin kitabı sənə silə göndərirəm. Yadigari-ustadanəm olmaq şərtilə qəbul edəsiniz və şairlikdə tərəqqi etmənizi arzu edirəm".

Sabir kitab ilə məktubu iftixarla alır və qəbul edir.

23 yaşında Xorasan ziyarətinə gedir və tarix olaraq bu şeri yazır:

Sabiri-şeyda ki, tərki-şəhri-Şirvan eylədi,
Bülbülə bənzərdi kim, meyli-gülüstan eylədi.
Min üç yüz birdə hicrətdən sora, meymun ili,
Axiri-şəvvaldə əzmi-Xorasan eylədi.

Neçə vaxt Xorasan, Səbzvar, Nişapur, Türbəti-Heydəriyyə, Türbəti-Cam, Xaf, Səmərqənd, Buxara tərəflərini səyahət edir. Əsnayi-səyahətdə dəstfüruşluqla güzəran edirmiş. Bu arada Xorasan ətrafına vəba naxoşluğu düşdüyünə görə orada dayanmayıb Şamaxıya qayıdır. Bir neçə